**UOT008**
**ORCID:** 0009-0006-2435-2504
**https://doi.org/10.52094/2221-7584.2025.37.81**

**Xatirə İbrahimova Ramiz qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**magistrant**
ibrahimovaxatirə1997@gmail.com

# ALTAY TÜRKLERİNİN MİLLİ BAYRAMLARINDA SOSİAL VƏ MƏDƏNİ DƏYƏRLƏR

**Xülasə:** Bayramlar xalqın tarixi, inanc sistemləri və ənənələrinin nəsildən-nəslə ötürülməsində mühüm bir vasitədir. Bayramlar həmçinin, cəmiyyətin birliyini gücləndirərək, müasir dövrün tələblərinə uyğun şəkildə mədəni dəyərlərin qorunmasına və inkişafına töhfə verir. Altay türklərinin bayramları onların mədəni kimliyini qorumaq və milli ənənələri yaşatmaq baxımından vacib rol oynayır. Bu bayramlar yalnız dini və milli aspektlərlə deyil, eyni zamanda sosial və mədəni cəhətləri ilə də əhəmiyyət kəsb edir.

Sovet dövründə ciddi məhdudiyyətlərlə üzləşən bu bayramlar, Sovet İttifaqının dağılmasından sonra bərpa olunmuş və Altay türklərinin milli kimliyinin ifadə olunmasında önəmli yer tutmuşdur. Bayramların keçirilməsi, şaman duaları, qurban mərasimləri, musiqi və rəqs kimi ənənəvi adətlərlə zənginləşdirilmişdir.

Altay türklərinin milli bayramları arasında “El oyunu”, “Çaqa”, “Yılqayaq”, “Juruk”, “Javıl Bür” (“Sarı Bür”) bayramları xüsusilə əhəmiyyətli yer tutur. Bu bayramlar yalnız keçmişin ənənələrini yaşatmaqla kifayətlənmir, həm də gələcək nəsillərə mədəni irsin ötürülməsini təmin edir və Altay türklərinin etnik və mədəni kimliyini qorumağa xidmət edir. Bu məqamda bildirmək olar ki,  bayramların həyata keçirilməsi yalnız mədəni təcrübə deyil, həm də milli özünüdərkin ifadəsidir.

**Açar sözlər**: Atay türkləri, ənənəvi bayramlar, milli kimlik, bayram adətləri, mədəni irs.

Bayramlar cəmiyyətin sosial-mədəni birliyini gücləndirən, milli-mənəvi dəyərlərin qorunmasını və tarixi ənənələrin davamlılığını təmin edən əsas vasitədir. Altay türklərində bayramlar təkcə dini və milli xarakter daşımaqla qalmır, həm də xalqın etnik və mədəni kimliyinin qorunub saxlanılmasında böyük rol oynayır. Altay türkləri təbiətə olan dərin bağlılıqları ilə seçilir və

bayramlar onların həyat tərzini, dünyagörüşünü və inanclarını əks etdirir. Ənənəvi mərasimlərin qorunması və inkişafı, mədəni irsin saxlanılması , eləcə də etnik qrupların milli kimliyini ifadə etməsi üçün şərait yaradır.

Altay türklərinin bayramları Sovet İttifaqı dövründə ciddi şəkildə sıxışdırılmışdır. Bu dövrdə yerli mədəniyyət və ənənələrin qorunması məqsədilə keçirilən bayramlar, Sovet hakimiyyəti tərəfindən yasaqlandırılmış və ya məhdudlaşdırılmışdır. Altay türklərinin adət-ənənələrinin və folklorunun tərkib hissəsi olan bu bayramlar, milli kimliyin formalaşmasında və müstəqil bir toplum olaraq qalma mübarizəsində mühüm rol oynamışdır.

Sovet İttifaqının dağılmasından sonra, Altay türkləri öz mədəniyyətlərinə və ənənələrinə qayıtmış, bayramları yenidən canlandırmağa başlamışlar. Bu dirçəliş, onların milli kimliyini gücləndirmiş, mədəni irslərini qorumağa yönəlmiş fəaliyyətlərə imkan tanımışdır. Beləliklə, Altay türklərinin bayramları, yalnız bir mədəni təcrübə deyil, eyni zamanda sosial birliyin və milli özünüdərk prosesinin əsasını təşkil edir.

Altay türklərində bayramların başlanması xüsusi mərasimlərlə müşayiət olunur və bu mərasimlər onların qədim inanclarına, ənənələrinə və təbiətə olan hörmətlərinə əsaslanır. Bayramların başlaması əsasən dualar, qurbanlar və şaman ayinləri ilə əlaqələndirilir. Şamanların, xüsusi ruhani şəxslərin bayramların başlamasında mühüm rolu var, çünki onlar təbiət qüvvələri və ruhlarla əlaqə qurmaq üçün müxtəlif ayinlər icra edirlər (7, s. 244-257).

Bayramların təşkili bir neçə mərhədə baş verir.Bu mərhələlər aşağıdakılardır:

Şaman duaları və qurban mərasimi: Bayramın başlanğıcında adətən şamanlar dua edir və xüsusi mərasimlər icra edirlər. Qurban olaraq, heyvanlar təqdim edilir ki, bu da təbiətə, ruhlara və tanrılara hörmətin təzahürüdür. Bu qurbanlar məhsuldarlıq, bərəkət və sülh üçün edilir.

Musiqi və rəqs: Bayramın başlanması ənənəvi musiqi alətləri və rəqslərlə qeyd olunur. İkili, topşur kimi musiqi alətləri ilə mahnılar ifa edilir. Bu musiqi və rəqs mərasimləri birliyə, harmoniya və xoşbəxtliyə çağırış kimi başa düşülür.

Qədim dastanların söylənməsi: Bayramların başlanmasında qədim Altay türklərinin tarixini, inanclarını və qəhrəmanlarını anmaq üçün dastançılar tərəfindən epik dastanlar söylənir. Bu, həm xalqın keçmişini yad etmək, həm də gənc nəsillərə bu mədəniyyətin ötürülməsi üçün vacib mərhələdir.

Altay türklərində “El oyunu” bayramı qədimdən gələn ənənələrdən biridir. Bu bayramın mahiyyəti, toplumun bir araya gələrək birlik və qardaşlıq

ruhunu gücləndirməsidir. “El oyunu” deyəndə həm müxtəlif kollektiv oyunlar, həm də bayramda keçirilən yarışmalar nəzərdə tutulur. Bayramda musiqi, rəqslər, xalq mahnıları və idman yarışları, xüsusən də atçılıq yarışları önəmli rol oynayır.Bu bayramın əsas məqsədi yalnız əyləncə deyil, həm də xalqın birliyini, mədəni kimliyini və ənənələrini qorumaqdır. Altay türkləri üçün bu cür kollektiv bayramlar mədəniyyətlərinin əsasını təşkil edir. Bayram həmçinin il ərzində icmanın əldə etdiyi uğurların qeyd olunması, gələcək planların müzakirəsi üçün də bir fürsətdir.

Altay türklərinin “El oyunu” bayramında müxtəlif ənənəvi oyunlar və yarışmalar keçirilir. Bu oyunlar həm fiziki gücü, həm də çevikliyi və strategiyanı ön plana çıxarır. Aşağıda bəzi məşhur oyunları qeyd etmək olar :

At yarışları (Bəyge) – Altay türklərində atçılıq mühüm yer tutur, buna görə də at yarışları “El oyunu” bayramının əsas hissəsidir. Müxtəlif məsafələrdə at yarışları təşkil olunur və qaliblər xüsusi hədiyyələrlə mükafatlandırılır.

Kureş (Güləş) – Güləş Altay Türklerinin qədim dövrlərdən bəri oynadıqları ənənəvi bir oyundur. Bu oyun, həm fiziki gücü tələb edən bir idman növü, həm də toplumsal bir tədbir olaraq böyük əhəmiyyət kəsb edir. Güləşdə güclü, çevik və çevrəsi ilə rəqabətə hazır olan güləşçilər müəyyən qaydalar daxilində bir-birlərini yerə sərməyə çalışırlar. Güləş yarışları bayramlar və bayramlar zamanı təşkil olunur, bu da yerli xalqın bir araya gəlməsinə, həmrəylik ruhunun güclənməsinə şərait yaradır. Ailələr və dostlar bu cür tədbirlərdə iştirak edərək sosial əlaqələrini möhkəmləndirirlər.

Eyni zamanda, güləş gənc nəsillərə ənənəvi dəyərləri və sosial normaları öyrətmək üçün bir vasitədir. Təcrübəli güləşçilər, gənclərə öz biliklərini və bacarıqlarını ötürərək mədəni mirası qoruyurlar. Bu oyun, Altay Türkleri üçün yalnız bir idman növü deyil, həm də onların mədəni kimliyinin vacib bir hissəsidir. Güləş, toplumsal bayram atmosferini artıraraq insanları bir araya gətirir və əyləncə imkanı yaradır.

Oxatma yarışı- El oyununun vacib yarışlarından biridir. Bu yarışda iştirakçılar öz nişan alma bacarıqlarını nümayiş etdirərək, hədəfi dəqiq vurmağa çalışırlar. Yarış, həm ənənəvi idman bacarıqlarının qorunub saxlanılmasına, həm də fiziki və zehni çevikliyin sınaqdan keçirilməsinə xidmət edir. Milli geyimdə iştirak vacibdir.

Toncoon qaçışı-Rəqabətçi yarışlarından biridir. Bu yarışda iştirakçılar sürət, çeviklik və dözümlülüklərini nümayiş etdirərək, müəyyən edilmiş məsafəni ən qısa zamanda qət etməyə çalışırlar.

Daş qaldırma- Ənənəvi güc sınaqlarından biridir. Bu yarışda iştirakçılar böyük və ağır daşları yerindən qaldıraraq, öz fiziki güclərini nümayiş etdirirlər. Daş qaldırma, gücün və iradənin simvolu olaraq Altay bayramlarının önəmli bir hissəsi kimi qəbul edilir.

Bu oyunlar həm qədimdən gələn ənənələrin davam etdirilməsi, həm də icma üzvləri arasında əyləncə və sosiallaşma məqsədi daşıyır (9, s. 410-429).

Altay türklərinin "El oyunu" bayramının konkret olaraq nə vaxt başladığını dəqiq müəyyənləşdirmək çətindir, çünki bu bayram çox qədim köklərə malikdir və yazılı tarixi mənbələrdə onun dəqiq başlanğıcına dair məlumatlar azdır. Lakin, Altay türklərinin köçəri həyat tərzi və qədim ənənələri nəzərə alınaraq, bu cür kollektiv bayramların kökləri minilliklər əvvələ, erkən türk xalqlarının sosial və mədəni həyatına gedib çıxır. "El oyunu" kimi toplu bayramlar, əsasən, Altay türklərinin icma həyatının tərkib hissəsi olub. Bu bayramlar tayfa və icma üzvləri arasında əlaqələri gücləndirmək, kollektiv birliyi qorumaq məqsədi daşıyırdı. Altay türklərinin qədim dövrlərdə belə bayramları keçirməsi onların həm sosial strukturlarını, həm də etnoloji inkişaflarını əks etdirir.

1988-ci il "El oyunu" bayramının müasir şəkildə təşkil olunduğu bir tarixdir. Bu il, Altay türklərinin mədəni irsini yaşatmaq və nümayiş etdirmək məqsədilə bayramın yenidən canlanmasına səbəb olmuşdur. O zamandan bəri, bu bayram ənənəvi oyunlar, musiqi və mədəniyyət tədbirləri ilə geniş şəkildə qeyd olunur (8, s. 26). "El oyunu" bayramı 1990-cı ildən etibarən Altay Respublikasında milli bayram statusu almışdır. Bayramın bərpası Altay türklərinin öz mədəniyyətlərini yaşatmaq arzusu ilə bağlıdır (10, s. 362). Bayrama 2006-cı ildə dövlət statusu verilib (8, s. 26 ).

Altaylarda Çaqa bayramı Ağ bayram adı ilə də tanınır və bu bayram Yeni il mərasimi kimi qeyd edilir (1,s.42). Altay türklərinin Çaqa Bayramı, buddizmdən gələn kökləri olsa da, milli xüsusiyyətlər qatılaraq qeyd edilən ənənəvi bir bayramdır. Bu bayram yalnız yeni ilin başlanğıcı kimi yox, həm də qışın sərtliyinin azalmağa başlaması ilə əlaqədar olaraq, soyuq mövsümün tez bitməsi üçün qeyd olunur. Bayram yanvar ayında, ayın hilala çevrildiyi zamanlarda qeyd olunmağa başlayır, buna görə də bayramın tarixi hər il dəyişə bilər. Məsələn, 1998-ci ildə Çaqa Bayramı yanvarın 28-də qeyd olunur. Bayrama hazırlıq çərçivəsində Altaylılar evlərini və həyətlərini, heyvanlarının saxlandığı yerləri təmizləyir, hər şeyin qaydasında olmasına çalışırlar. Bayram günü insanlar yeni paltarlar geyinərək qarşılayırlar. Bayram şənliklərinin

keçirildiyi kənd yerlərində səhər erkən insanlar toplaşaraq tədbirlərə başlamağa hazırlaşırlar (5, s. 5).

"San Salari" mərasimi Çaqa bayramında qeyd edilir. "San saları" mərasimi yeni ay görünən zaman başlayır və ona öncədən hazırlıq edilir. Evin şərq hissəsində yüksək bir yerdə daş qoyulur. Günəş şüaları düşdüyündə, daşın üzərində od yandırılır. Odun ətrafında müxtəlif süd məhsulları yerləşdirilir və bu zaman dua edilir (10, s. 43).

Altay Respublikasının kənd və qəsəbələrində Altay türkləri arasında keçirilən bayramlar, günəşin doğuşu ilə başlayır və yaşlılar təbiətə çıxaraq onun gücünü dərk edir, şüurunu genişləndirir. Adətə görə, bayramlara qatılacaq insanların mənəvi təmizliyi mühüm şərtdir. Son bir ildə evində ölüm hadisəsi olanlar bu mərasimlərdə iştirak etməməlidirlər. Eyni zamanda, yaşlılar hikmətli və bacarıqlı olmalıdırlar. Mərasimlərdə müdriklər və qocalar, kəndlərində və qəsəbələrində yaşayan insanların xoşbəxtliyi, rifahı və sülhü üçün Uca Yaradanın köməyini diləyirlər (16).

At südü, xüsusilə bayram mərasimlərinin mühüm bir hissəsidir. Süd ağacdan hazırlanmış qablara tökülür və bu qablara uyğun olaraq xüsusi ağac qaşıqlar istifadə olunur. Bundan əlavə, süddən müxtəlif yeməklər, məsələn, "sürcü" (terçingi), "Destək" (pendir), və "ecigey" (qaynadılmış süd) hazırlanır (5, s. 6).

Dua edildikdən sonra insanlar bir-birləri ilə söhbət etməyə başlayır, bir-birlərinin yaşını, son bir ili necə keçirdiklərini soruşur və qarşılıqlı olaraq gələn il üçün xeyir-dualar diləyirlər. Bunun ardından oyunlar və əyləncələr başlayır. Ən çox sevilən və oynanan oyunlardan biri isə "Tebek" adlanır. Tebek, yumru qurğuşun və ya metal parçasının tüklü dəriyə bükülməsi ilə hazırlanan kiçik bir topdur.

Tebek oyunu üçün düz və təmiz bir sahə seçilir. Yarışda iştirak edənlər tebeği ayaqlarında havada fırlatmağa başlayırlar. Ən çox fırladan şəxsin, keçən ili uğurla başa vurduğuna inanılır. Tebek oyunundan başqa da müxtəlif oyunlar oynanır. Bunlara, bayramların qış günlərinə təsadüf etməsi səbəbindən, buz üzərində sürüşmək, xizəklə enmək və ya uşaqların və orta yaşlıların böyük heyvan dərisinin üzərinə oturaraq təpədən aşağı sürüşməsi kimi əyləncələr daxildir. Bu əyləncələr içində ən diqqət çəkəni isə, hər yaş qrupundan insanın iştirak etdiyi qarda yuvarlanma oyunudur. İnanclara görə, qarda yuvarlanaraq mübarizə aparan şəxs keçən ilin pisliklərindən və özündəki pis vərdişlərdən təmizlənir.

Bu cür dini mərasimlər, oyunlar və əyləncələr başa çatdıqdan sonra bayram sona çatır. İnsanlar bir-birinə xoş arzular dilədikdən sonra qışın soyuqlarının azalması və əsl baharın, yeni ilin başlanğıcı olan Yılqayaq bayramının tezliklə gəlməsi gözlənilir (5, s. 6) .

Yılqayaq bayramı, Altay bölgələrində qeyd olunan qədim bir bayramdır. Bu bayram, yazın gəlişi və təbiətdəki yenilənməni simvollaşdırır (1, s. 42).

Cəlal Beydili “Türk Mitolojisi Ansiklopedik Sözlük” kitabında Altay Dağları ətrafında türklərin məskunlaşması ilə bağlı maraqlı bir mifoloji hekayəni təqdim edir. Onun fikrincə, qədim türk xalqları bu ərazilərdə Bozqurdun rəhbərliyi altında özlərini xilas ediblər. Bu hekayənin simvolik mənası, türklərin öz kimliklərini və varlıqlarını yenidən tapma prosesini əks etdirir. Bu qurtuluş günü, Bəydilinin qeyd etdiyi kimi, martın 22-si, yəni Nevruz bayramı ilə əlaqələndirilir. Ergenekon dastanında da bu tarix, türklərin öz “yenidən doğulma” və “yeniləşmə” mərhələsini simvollaşdırır. Buna görə də Nevruz bayramı, türk xalqı üçün həm tarixi, həm də mifik qurtuluşu və yeni ilin başlanğıcını qeyd edən vacib bir gündür (4, s. 433). Necati Demir “ Türklüğün En Eski Bayramı Nevruz” adlı məqaləsində, Altaylar bölgəsində Novruzun “Cılgayak” olaraq da adlandırıldığını qeyd edir (14), həmçinin Özen Topçu “Ergenekon Bayramı: Nevruz” adlı məqaləsində, Nevruz bayramının Altay türkləri arasında Cılğayak adı ilə qeyd olunduğunu vurğulamışdır (15).

Dr. Bayram Durbilmez “Türk Kültüründe Yenigün/ Nevruz Bayramı” adlı məqaləsində Türk dünyasının müxtəlif bölgələrində Yeni Gün bayramına verilən fərqli adlar sırasında “Cılgayak”ı da qeyd edir. Bu adlandırma Altay türkləri arasında yayılmış olub, yeni ilin başlanğıcı ilə əlaqələndirilir (6, s. 29-34).

Prof. Dr. Necati Demir “Türklüğün En Eski Bayramı Nevruz ve Tarihi Alt Yapısı” adlı məqaləsində Novruzun mənşəyini Altay bölgəsi ilə əlaqələndirir. O, qeyd edir ki, Altayların sərt iqlim şəraiti, uzun və çətin qış ayları insanları baharın gəlişinə xüsusi önəm verməyə vadar etmişdir. Bu səbəbdən Novruz Altay türkləri üçün hər il təkrarlanan bir Ergenekondan çıxış mənası daşıyır və burada formalaşaraq türklər vasitəsilə Asiya və Avropaya yayılmışdır (14) .

Yılqayaq bayramı, həmçinin təbiətə, su və torpağa olan bağlılığı vurğulayır, insanların bir araya gəlməsi və birlik hissini artırır. Bu bayram, mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətli bir rol oynayır (17, s. 994-1002) .

Yılqayaq bayramında müxtəlif at yarışları, at ustalığı və döyüş oyunları təşkil edilir. Oyunlar həm güc, həm sürət, həm də çeviklik tələb edir. Bu bayram Altay türklərinin qədimdən bəri atlara verdiyi əhəmiyyəti və atçılıq mədəniyyətini yaşadır. Bayram həm də icma üçün bir araya gəlmək, qohumluq və dostluq əlaqələrini gücləndirmək üçün bir fürsət sayılır. Bununla yanaşı, Yılqayaq bayramı, təbiətlə və heyvanlarla dərin əlaqənin simvolu kimi türk xalqlarının mənəvi dünyasında mühüm yer tutur. Yılqayaq bayramı zamanı keçirilən mərasimlər və atçılıq oyunları ilahi qüvvələrə hörmətin bir hissəsi kimi qəbul edilə bilər. Bu bayramla insanlar təbiətə və atlara ehtiramlarını bildirir, bununla da ilahi qüvvələrdən xeyir-dua almağa çalışırlar. Bayram, həmçinin insanların ilahi varlıqlarla və təbiətlə harmoniyada yaşamaq istəyini simvolizə edir. Bayramında atların mərkəzi rolu, onların türk şamanizminin simvolik elementlərindən biri olması ilə bağlıdır. Atlar şamanların ruhlarla əlaqə yaratmaq və göy dünyasına səfər etmək üçün istifadə etdikləri müqəddəs vasitələr kimi qəbul edilirdi. Şamanik mərasimlərdə atlar həm fiziki dünyada, həm də metafizik dünyada əhəmiyyət daşıyırdı. Şamanlar tez-tez “göy atlarına” minərək ruh dünyalarına səyahət edirdilər və bu, şamanizmə görə, ilahi qüvvələrlə əlaqə yaratmanın bir forması idi. At yarışları və digər atçılıq oyunları şamanik ritual və mərasimlərin izlərini daşıyır. Bu bayramda yerinə yetirilən fəaliyyətlər, şamanizmin əsas elementlərindən olan təbiətə, heyvanlara və ruhlara hörmətin bir ifadəsi kimi qəbul edilə bilər. Bayram zamanı şamanların Ülgen və digər ruhlarla ünsiyyətə girməsi və onların xeyir-duasını almaq üçün mərasimlər icra etməsi mümkündür. Beləliklə, Cılğayaq bayramı, həm şamanik inancların, həm də türk xalqlarının atçılıq mədəniyyətinin təcəssümü kimi çıxış edir (8, s. 402-404).

Altayda Yılqayaq bayramı ənənəvi olaraq mart ayının 21-də qeyd edilir. Bu, təbiətin oyanışı və yaylağa köçmə ilə əlaqələndirilir. Bu bayram Novruz bayramında olduğu kimi baharın gəlişi, təbiətin yenidən oyanması və yeni ilin başlanğıcını qeyd etmək üçün keçirilir (9, s. 4).

Juruk bayramı, digər adı ilə Sedir bayramı Şimali Altay boyları arasında – xüsusilə Kumandinlər, Çelkanlar, Tuvalar və Telengitlər tərəfindən qeyd olunan qədim və zəngin ənənələrə malik bir mərasimdir. Bu bayram tayqa xalqlarının təbiətə və xüsusilə sidr ağacına olan dərin hörmət və bağlılığını təcəssüm etdirir. Əsasən avqust və sentyabr aylarında keçirilən bu bayram Altay türklərinin təbiət dövrlərinə uyğunlaşmış həyat tərzinin simvolu kimi çıxış edir və onların ekoloji harmoniya və təbiətlə olan sıx əlaqələrini ifadə edir.

Juruk bayramının mühüm elementlərindən biri sidr ağacına dırmanma yarışlarıdır ki, bu da tayqa xalqlarının fiziki güc, çeviklik və təbiətə inteqrasiya bacarıqlarını nümayiş etdirən bir ənənəvi oyundur. Bu cür yarışmalar yalnız əyləncə məqsədi daşımır, həm də təbiətin gücünü və insanın onunla olan vəhdətini simvolizə edən ritualist xarakterə malikdir. Ağac fırlatma kimi digər oyunlar da iştirakçıların təbiət elementləri ilə qarşılıqlı əlaqəsini, güc və balansını sınaqdan keçirən simvolik yarışlardır. Bu oyunlar, tayqa mədəniyyətində insan və təbiət arasında dərin mənəvi əlaqəni göstərir.

Bayramın son mərhələsi xalq mahnılarının ifası ilə başa çatır. Bu mahnılar, tayqa xalqlarının mədəni yaddaşını qorumaqda mühüm rol oynayır və keçmişdən gələcəyə uzanan kollektiv dəyərlərin, miflərin və inancların daşıyıcısıdır. Mahnılar vasitəsilə təbiətə olan inam, tarixi və ruhani dəyərlər gələcək nəsillərə ötürülür, beləliklə Juruk bayramı Altay türklərinin yalnız ekoloji deyil, həm də mənəvi varlığının ifadəsi olan kompleks bir mədəni fenomen kimi diqqət çəkir. Bayram təbiətlə harmoniyada yaşamağın, kollektiv yaddaşın qorunmasının və mədəni dəyərlərin ötürülməsinin əhəmiyyətini vurğulayan dərin mənalı bir mərasim olaraq təsbit olunur (9, s. 365-366).

Javıl Bür və Sarı Bür qədim türk və Altay mədəniyyətində mühüm yer tutan mövsümi mərasimlərdir. Hər iki bayram təbiətin dövri dəyişiklikləri, köçəri həyat tərzi və heyvandarlıqla sıx əlaqəlidir. Bu bayramlar köçəri türklərin otlaq dövrlərini və heyvandarlıqla məşğul olan cəmiyyətlərin həyat dövrünü əks etdirirdi.

Javıl Bür yay mövsümünün başlanğıcı ilə bağlı qeyd olunan bayramdır. Qədim türk və Altay xalqları üçün yay mövsümü böyük əhəmiyyət kəsb edirdi, çünki bu, mal-qaranın yaylaqlara köçürülməsi dövrü idi. Javıl Bür bayramı köçərilər üçün yay otlaqlarına çıxmaqla bağlı simvolik məna daşıyırdı. Yaylaqda həyat, heyvanların sağlamlığı və məhsuldarlıqla əlaqəli idi. Bu bayram təbiətə şükranlıq və yay mövsümünün başlamasını qeyd etmək üçün keçirilirdi. Adətən bu dövrdə qurbanlar kəsilir, dualar edilir və mövsümün bərəkətli keçməsi üçün mərasimlər təşkil olunurdu.

Sarı Bür payızın gəlişi və otlaqların saralması ilə əlaqəli bayramdır. Payızda köçəri həyat tərzində heyvanlar yay otlaqlarından qışlamaq üçün geri qaytarılırdı. Sarı Bür bu mərhələni, qışa hazırlığı və təbiətin dəyişməsini simvolizə edir

Sarı Bür bayramı qışa hazırlıq, məhsul yığımı və heyvanların qış yemi ilə təmin olunması ilə bağlıdır. Köçərilər bu dövrdə payızın son mərhələsini

qeyd edir, qışa hazırlaşırdılar. Bayram zamanı xüsusi qurbanlar kəsilir, bərəkət üçün dua edilirdi. (9, s. 369).

**Nəticə**

Altay türklərinin ənənəvi bayramları onların mədəniyyətinin və həyat tərzinin ayrılmaz bir hissəsini təşkil edir. Bu bayramlar, təkcə əyləncə xarakterli deyil, eyni zamanda dərin mənalar daşıyır. Hər bir bayram, cəmiyyət üzvləri arasında birlik, dostluq və qarşılıqlı hörmətin güclənməsinə xidmət edir.

Altay türklərinin bayramları, onların həyat fəlsəfəsini, ruhunu və adətlərini yaşatmaqla yanaşı, gələcək nəsillər üçün də mühüm bir miras qoyur. Bu səbəbdən, bu bayramların qorunması və yaşadılması, Altay türklərinin mədəni irsinin davamlılığını təmin etmək baxımından son dərəcə əhəmiyyətlidir.

Bundan əlavə, Altay türklərinin bayramları, onların tarixi və mədəni dəyərlərinin bir araya gəldiyi, insanların ruhlarını birləşdirən və toplumsal kimliklərini gücləndirən mühüm bir platformadır. Bu bayramlar, müasir dövrdə də cəmiyyət üzvlərinin bir araya gəlməsi, köklərinə bağlılıq hissi yaşaması və ənənələrinin davam etdirilməsi üçün bir vasitə rolunu oynayır.

Nəticə etibarilə, Altay türklərinin bayramları, yalnız mədəni irsin qorunması deyil, eyni zamanda cəmiyyətin birliyini və insanları bir araya gətirən ənənəvi dəyərlərin yaşadılması üçün də əhəmiyyətli bir rol oynayır. Bu bayramların yaşadılması, Altay türklərinin öz kimliklərini qorumaq və gələcək nəsillərə ötürmək baxımından vacibdir.

## Ədəbiyyat siyahısı:

*Azərbaycan dilində*

1. Ağaverdi Xəlil. Türk xalqlarının bayramları və Novruz. Bakı : Folklor İnstitutu, 2013, 150 s.
2. Quliyeva Nərgiz. Etnoqrafiya və Etnologiya : Ali məktəb tələbələri üçün dərs vəsait. Bakı, 2009, 157 s.
3. Rüstəmov Rüfət, İmanov Güləhməd. Türk etnoqrafiyası. Dərslik. Ankara: İksad Yayınevi, 2024, 134 s.

*Türk dilində*

4. Beydili Celal . Türk Mitolojisi Ansiklopedik Sözlük. Ankara: Yurt Kitap-Yayın, 2005, 637 s.
5. Dilek İbrahim, K. E. Ukaçino. Nevruz ve Çaqa bayramı üzerine // Bilge dergisi, Bahar, 1998

6. Durbilmez Bayram. Türk kültüründe yenigün / Nevruz bayramı // TÜRKSOY: Türk Dünyası-Kültür-Sanat-Bilim-Haber ve Araştırma Dergisi, cild 2, sayı 9, 2003, 63 s.
7. Somuncuoğlu, A. Altay Cumhuriyyəti // Türklər Ensiklopediyası, cild 20, Yeni Türkiyə Yayınları, Ankara,2002, 1556 s.
8. Şayhan Fatih. Altaylardaki varoluş dinamikleri: kültürel bellek yaratmada El Oyının toplumsal işlevi // Siberian Studies (SAD), – 2014, cild 2, № 6.
9. Şimşek Cemil. Altay türklərinin sosyo-kültürel yapısı , geleneksel sporları ve oyunları. Doktora tezi. Bişkek, 2021, 592 s.
10. Türkdünyasında Nevruz. Üçünü uluslararası bilgi şöleni bildirileri (18-20 Mart, Elazığ). Atatürk Kültür Merkezi Başkanlığı, 2000, 544s.

*Rus dilində*

11. Культура и традиции коренных народов Северного Алтая / Отв. ред. А.В. Малинов. – СПб : Изд. Дом С.-Петерб. гос. ун-та, 2008, 400 с.
12. Ойноткинова Н. Р. Календарные обряды и праздники алтайцев и телеутов: классификация и общая характеристика. Сибирский филологический журнал, 2022, № 3,348 с.

*İnternet resursu*

13. Bayramqızı Əfsanə. Türk xalqlarının ortaq yeni gün bayramı // Xalq qəzeti, mart, 2010. http://anl. az/down/meqale/xalqqazeti/2010/mart/111897. htm
14. Demir Necati. Türklüğün En Eski Bayramı Nevruz // Sivas İrade qəzeti, 21.03.2017. https://www.sivasirade.com/haber/turklugun-en-eski-bayrami-nevruz--14421.html
15. Özen Topçu. Ergenekon Bayramı: Nevruz. // Devlet,iki aylıq fikir ve kültür dergisi, 07.03.2016 http://devlet.com.tr/makaleler/Y170-Ergenekon_Bayramı_Nevruz.html
16. Rusya Federasyonu, Altay Cumhuriyetinde “Çaqa bayrami” kutlanıyor. https://www.formathaber.com/rusya-federasyonu-altay-cumhuriyetinde-caga-bayrami-kutlaniyor-17470/
17. Şayhan Fatih. Cılgayak festival among altaic turks in the context of collective consciousness and sense of belonging. // Motif Akademi Halkbilim Dergisi, 13 (31), 2020.
18. Дом Дружбы народов Республики. https://ddn04.ru/deyatelnost/prazdniki?utm_source=chatgpt.com
19. Официальный Портал Муниципального Образования “Город Горно-Алтайск”. https://gornoaltaysk.ru/gorod/kalendar-sobytiynykh-meropriyatiy/?utm_source=chatgpt.com

20. Праздник народных игр “Эл-Ойын”. http://ded-altai.ru/history/prazdnik_narodnykh_igr_el-ojjyn

**Khatira Ibrahimova**

**SOCIAL AND CULTURAL VALUES IN NATIONAL HOLIDAYS OF ALTAI TURKS**

**Summary:** Holidays are an essential means of transmitting a nation's history, belief systems, and traditions from generation to generation. They also contribute to preserving and developing cultural values by strengthening social unity and adapting to the demands of the modern era. Holidays of the Altai Turks play a crucial role in maintaining their cultural identity and keeping national traditions alive. These holidays hold significance not only in religious and national aspects but also in their social and cultural dimensions.

Having faced severe restrictions during the Soviet era, these holidays were revived after the dissolution of the Soviet Union and became an important expression of the national identity of the Altai Turks. The celebration of these holidays is enriched with traditional practices such as shamanic prayers, sacrificial rituals, music, and dance.

Among the national holidays of the Altai Turks, El Oyunu, Çağa, Yılqayaq, Juruk, and Javıl Bür (Sarı Bür) hold particular importance. These holidays do not merely serve to preserve past traditions but also ensure the transmission of cultural heritage to future generations and contribute to the protection of the ethnic and cultural identity of the Altai Turks. In this regard, it can be stated that the celebration of holidays is not only a cultural experience but also an expression of national self-awareness.

***Key words:*** Altai Turks, traditional holidays, national identity, festival customs, cultural heritage.

**Хатира Ибрагимова**

**СОЦИАЛЬНЫЕ И КУЛЬТУРНЫЕ ЦЕННОСТИ В НАЦИОНАЛЬНЫХ ПРАЗДНИКАХ АЛТАЙСКИХ ТЮРКОВ**

**Резюме:** Праздники являются важным средством передачи истории, системы верований и традиций народа из поколения в поколение. Они также способствуют сохранению и развитию культурных ценностей, укрепляя единство общества и адаптируясь к требованиям

современного времени. Праздники алтайских тюрков играют ключевую роль в сохранении их культурной идентичности и поддержании национальных традиций. Эти праздники значимы не только в религиозном и национальном аспектах, но и в социальных и культурных измерениях.

Столкнувшись с серьезными ограничениями в советский период, эти праздники были возрождены после распада Советского Союза и заняли важное место в выражении национальной идентичности алтайских тюрков. Их празднование обогащается традиционными обрядами, такими как шаманские молитвы, жертвоприношения, музыка и танцы.

Среди национальных праздников алтайских тюрков особое значение имеют “Эл ойну”, “Чага”, “Йылкаяк”, “Журук” и “Жавыл Бюр” (“Сары Бюр”). Эти праздники не только сохраняют традиции прошлого, но и обеспечивают передачу культурного наследия будущим поколениям, способствуя сохранению этнической и культурной идентичности алтайских тюрков. В этом контексте можно отметить, что празднование этих событий является не только культурным опытом, но и выражением национального самосознания.

***Ключевые слова:*** Алтайские турки, традиционные праздники, национальная идентичность, праздничные обычаи, культурное наследие